# UŞAQLAR ÜÇÜN NƏZƏRDƏ TUTULAN, BÖYÜKLƏRIN DƏ EHTIYAC DUYDUĞU

# SUAL-CAVAB


Müəllif: Şeyx Səlim İbn Səd ət-Tavil

Ərəb dilindən tərcümə edən: Elçin Quliyev

Redaktə edən: Fərhad Adayev





﴿فَاعْلَمْ أَنَّهُ لَا إِلَٰهَ إِلَّا اللَّهُ﴾

Tovhid.info

"Bil ki, Allahdan başqa ibadətə layiq olan heç bir məbud yoxdur"

WWW.TOVHID.INFO

# Müqəddimə

## Mərhəmətli və Rəhimli Allahın adı ilə

Həmd olsun Aləmlərin Rəbbi Allaha. Onun sonuncu peyğəmbəri Muhəmmədə Allahın salavatı və salamı olsun. Bu, əqidə, ibadətlər, ədəblər və Peyğəmbərin həyatı ilə bağlı Sual-cavabdır. Bu risaləni hazırlamaqda məqsədim odur ki, uşaqlar onu əzbərləsin, valideynlər də uşaqları öyrətdikdə ondan istifadə etsinlər. Çünki bəzən valideynlər və müəllimlər uşaqla dialoq qurmağa çətinlik çəkir. Bu səbəbdən də “Uşaqlar üçün nəzərdə tutulan, lakin böyüklərin də ehtiyac duyduğu Sual-cavab”ı yazmağı münasib bildim. Allahdan istəyirəm ki, bu risaləni oxuyan, əzbərləyən, öyrədən və öyrənən hər kəs üçün faydalı etsin. Amin!

*Rəcəb ayının 20-si, 1424-cü il.*
*Miladi tarixi ilə: 16 sentyabr, 2003-cü ilə təsadüf edir.*

1. Sual: Rəbbin kimdir?

Cavab: Rəbbim Allahdır.

2. Sual: Allah haradadır?

Cavab: Allah göydədir (səmalardan, hər şeydən ucada)

3. Sual: Allahın qulları üzərində haqqı nədir?

Cavab: Ona ibadət etsinlər və heç nəyi Ona şərik qoşmasınlar.

4. Sual: Bu hədisi tamamla: Allahın elçisi ﷺ deyib: “Kim Rəbb olaraq Allahdan...”

Cavab: ***“Kim “Rəbb olaraq Allahdan, din olaraq İslamdan və Peyğəmbər olaraq Muhəmməddən razıyam” desə, Cənnət ona vacib olar.”*** (Əbu Davud 1529, Səhih)

5. Sual: Allah bizi nə üçün yaradıb və buna dəlil nədir?

Cavab: Allah bizi tək Ona ibadət etmək üçün yaradıb. Uca Allah buyurub: **"Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım."** (əz-Zəriyət, 56).

6. Sual: Bizim üzərimizdə ən əzəmətli vacib hansıdır?

Cavab: Tövhid. Yəni Allahı Onun haqqı olan şeylərdə təkləşdirmək.

7. Sual: Tövhidin üç qismini sadala.

Cavab: 1. Rububiyyət tövhidi

2. Uluhiyyət tövhidi

3. Ad və sifətlər tövhidi

8. Sual: Tövhid kəlməsi hansıdır və onun mənası nədir?

Cavab: Tövhid kəlməsi "Lə iləhə illəllah"-dır. Onun mənası: Allahdan başqa haqq (ibadətə layiq olan) məbud yoxdur.

9. Sual: Hədisi tamamla: Peyğəmbər (salləllahu əleyhi va səlləm) buyurub: “Lə iləhə illəllah, Muhəmmədun rasulullah" kəlməsini sadiq qəlblə...”

Cavab: ***“Lə iləhə illəllah, Muhəmmədun rasulullah" kəlməsini sadiq qəlblə sadiq qəlblə deyən elə bir kəs yoxdur ki, Allah onu Cəhənnəm oduna haram etməsin.”*** (Buxari, Muslim)

10. Sual: Ən böyük günah hansıdır?

Cavab: Şirk.

11. Sual: Şirk nə deməkdir?

Cavab: Şirk - Allahdan başqasına ibadət etmək və ya Allahla yanaşı başqasına ibadət etməkdir.

12. Sual: Hədisi tamamla: Allahın elçisi ﷺ buyurub: “Kim Allahdan başqasına and içərsə...”

Cavab: ***“Kim Allahdan başqasına and içərsə, artıq küfr və ya şirk etmişdir.”*** (Tirmizi, 1535)

13. Sual: Allahdan başqa qeybi bilən varmı? Buna dəlil nədir?

Cavab: Allahdan başqa heç kim qeybi bilmir. Uca Allah buyurub: **“De: "Allahdan başqa göylərdə və yerdə olanların heç biri qeybi bilməz".”** (ən-Nəml surəsi, 65).

14. Sual: Allah yanında əməllər nə zaman qəbul olunur?

Cavab: Əməllər yalnız Allah üçün edildikdə və Onun elçisinin yoluna uyğun olduqda qəbul olunur.

15. Sual: Quranın dörddə birinə bərabər olan surə hansıdır?

Cavab: “əl-Kəfirun” surəsi.

16. Sual: Peyğəmbərin kimdir?

Cavab: Allahın elçisi Muhəmməd.

17. Sual: “Muhəmməd Allahın elçisidir” nə deməkdir və bizim üzərimizdə onunla bağlı hansı vaciblər var?

Cavab: Allahın elçisi - yəni Allah onu bütün insanlara müjdələyən və xəbərdarlıq edən elçi kimi göndərib.

Üzərimizə düşən vaciblər:

– Onun əmrlərinə itaət etməliyik.

– Verdiyi xəbərləri təsdiq etməliyik.

– Qadağan etdiyi və çəkindirdiyi şeylərdən çəkinməliyik.

– Allaha yalnız onun gətirdiyi şəriətlə ibadət etməliyik.

18. Sual: Peyğəmbərimizin, onun atasının və babasının adı nədir?

Cavab: Peyğəmbərimizin adı Muhəmməddir. Atasının adı Abdullah, babasının adı isə, Abdulmuttalibdir.

19. Sual: Bütün insanlardan ən çox kimi sevmək bizə vacibdir? Buna dəlil nədir?

Cavab: Hamıdan çox Allahın elçisini sevməliyik. Çünki o, ﷺ belə deyib: ***“Sizdən biriniz məni öz valideynindən, övladından və bütün insanlardan çox sevmədikcə*** (kamil) ***iman etmiş olmaz.”*** (Buxari, 15)

20. Sual: Peyğəmbər ﷺ hansı ildə və hansı şəhərdə anadan olub?

Cavab: O, “Fil” ilində, Məkkə şəhərində anadan olub.

21. Sual: Allah onu elçi kimi göndərdikdə onun neçə yaşı var idi?

Cavab: 40 yaşı.

22. Sual: O, peyğəmbərlik verildikdən hicrət edənə qədər Məkkədə neçə il yaşadı?

Cavab: 13 il.

23. Sual: Peyğəmbər ﷺ haraya hicrət etmişdir?

Cavab: Mədinə şəhərinə.

24. Sual: Hicrət etdikdən sonra o, Mədinədə neçə il yaşadı?

Cavab: 10 il.

25. Sual: Möminlərin anaları kimlərdir?

Cavab: Peyğəmbərin zövcələri.

26. Sual: Peyğəmbər ﷺ nə vaxt və harada vəfat edib? Vəfat etdikdə onun neçə yaşı var idi?

Cavab: O, hicrətdən 10 il sonra Mədinədə vəfat edib. Vəfat etdikdə onun 63 yaşı var idi.

27. Sual: Hədisi tamamla: Allahın elçisi ﷺ belə deyib: “Kim mənə bir salavat deyərsə...”

Cavab: ***“Kim mənə bir salavat deyərsə, buna görə Allah o kəsə on salavat deyər.”*** (Muslim, 408)

28. Sual: Dinin nədir?

Cavab: Dinim İslamdır.

29. Sual: İslam nədir?

Cavab: İslam – Allahı təkləşdirərək Ona təslim olmaq, Ona boyun əyərək itaət etmək, şirkdən və əhlindən uzaq olmaqdır.

30. Sual: İslamın neçə rüknü var? Buna dəlil nədir?

Cavab: İslamın beş rüknü var. Peyğəmbər (salləllahu əleyhi va səlləm) buyurub: ***“İslam beş dayaq üzərində qurulub: Lə iləhə illəllah, Muhəmmədun rasulullah şəhadəti, namaz qılmaq, zəkat vermək, həcc etmək və Ramazan orucunu tutmaq.”*** (Buxari, 8. Muslim, 16).

31. Sual: İslamın dirəyi sayılan əməl hansıdır?

Cavab: Namaz.

32. Sual: Hədisi tamamla: Allahın elçisi ﷺ belə deyib: "Bizimlə onların arasında əhd namazdır…"

Cavab: ***"Bizimlə onların arasında əhd namazdır. Kim onu tərk etsə, artıq küfr etmişdir."***

33. Sual: Namaz nə deməkdir?

Cavab: Namaz – xüsusi sözlər və hərəkətlərlə edilən, təkbirlə başlayan və salamla bitən ibadətdir.

34. Sual: Müsəlmana gün ərzində neçə dəfə namaz qılmaq vacibdir və bu namazlar neçə rükətdən ibarətdir?

Cavab: Gün ərzində beş vaxt namaz qılmaq vacibdir.

1) Fəcr (Sübh) namazı – 2 rükət.

2) Zöhr namazı – 4 rükət.

3) Əsr namazı – 4 rükət.

4) Məğrib namazı – 3 rükət.

5) İşa namazı – 4 rükətdir.

35. Sual: Namazın şərtləri hansılardır?

Cavab:

1. İslam (müsəlman olmaq)

2. Ağıl (ağlın başda olması)

3. Təmyiz (uşağın yaxşını pisdən ayıran vaxtı, təxminən 7 yaş)

4. Namazın vaxtının girməsi.

5. Nəcasətin aradan qalxması (paltarın, bədənin və namaz qılınan yerin təmiz olması).

6. Təharət (qüsl və dəstəmazın olması).

7. Övrətin örtülməsi.

8. Qibləyə yönəlmək.

9. Niyyət etmək.

36. Sual: Dəstəmazın rüknləri hansılardır?

Cavab:

1) Ağzın və burnun yaxalanması daxil olmaqla üzü yumaq.

2) Barmaqların ucundan dirsəklərə qədər (dirsəklər də daxil olmaqla) qolları yumaq.

3) Başa və qulaqlara məsh çəkmək.

4) Topuqlar da daxil olmaqla ayaqları yumaq.

5) Bu tərtibə riayət etmək.

6) Bunları edəndə arada uzun fasilə verməmək.

37. Sual: Dəstəmazı nələr pozur?

Cavab:

1) Öndən və arxadan çıxan. (nəcis, sidik, yel və s.)

2) Yuxuya getmək və huşu itirmək.

3) Dəvə əti yemək.

4) Qüslü vacib edən şeylər.

38. Sual: Hədisi tamamla: Allahın elçisi ﷺ belə deyib: “Kim dəstəmaz alsa, sonra "Əşhədu ən lə iləhə illəllah, vahdəhu lə şərikə ləh və əşhədu ənnə Muhəmmədən abduhu və rasuluh" deyərsə, ...”

Cavab: ***“Kim dəstəmaz alarsa, sonra "Əşhədu ən lə iləhə illəllah, vahdəhu lə şərikə ləh və əşhədu ənnə Muhəmmədən abduhu və rasuluh" deyərsə, onun üçün Cənnətin səkkiz qapısı da açılar və o kəs bu qapıların hansından istəsə, daxil olar."*** (Muslim, 234).

39. Sual: Namazda Qurandan hansı surəni oxumaq vacibdir?

Cavab: Fatihə surəsini.

40. Sual: Namaz qılan rukuda nə deyir?

Cavab: Subhənə Rabbiyəl-Azım

41. Sual: Namaz qılan səcdədə nə deyir?

Cavab: Subhənə Rabbiyəl-Ə'lə.

42. Sual: Namaz qılan iki səcdə arasında oturarkən nə deyir?

Cavab: Rabbi-ğfir li, Rabbi-ğfir li.

43. Sual: Namazda təşəhhüddə hansı zikr oxunur?

Cavab: ***“ət-Təhiyyətu lilləhi vəs-saləvatu vət-tayyibət, əssələmu əleykə əyyuhən-nəbiyyu və rahmətullahi və bərakətuhu, əssələmu əleynə və ələ ibədil-ləhis-salihin, əşhədu ən lə iləhə illəllah vahdəhu lə şərikə ləh və əşhədu ənnə Muhəmmədən əbduhu və rasuluh.”*** (Buxari, 6230. Muslim, 402).

44. Sual: Namazda salavat necə deyilir?

Cavab: ***“Allahummə salli ələ Muhəmmədin və ələ əli Muhəmməd, kəmə salleytə ələ İbrahimə və ələ əli İbrahim, innəkə Həmidun Məcid, və bərik ələ Muhəmmədin və ələ əli Muhəmməd, kəmə bəraktə ələ İbrahimə və ələ əli İbrahim, innəkə Həmidun Məcid.”*** (Buxari, 3370. Muslim, 406).

45. Sual: İnsan namazın sonunda, salamdan əvvəl dua edərək Allaha hansı 4 şeydən sığınır?

Cavab:

"Allahummə inni əuzu bikə min azəbi Cəhənnəm və min azəbil-qabr və min fitnətil-məhyə vəl-məmət və min şərri fitnətil-Məsihid-dəccəl."

(Mənası: Allahım! Həqiqətən də, mən Cəhənnəm əzabından, qəbir əzabından, həyatın və ölümün fitnəsindən və Məsih Dəccalın fitnəsinin şərindən sənə sığınıram).

46. Sual: Hədisi tamamla: Allahın elçisi ﷺ belə deyib: “Hər gün fərz namazlardan başqa on iki rükət könüllü namazları qılan elə bir müsəlman qul yoxdur ki, ...”

Cavab:

***"Hər gün fərz namazlardan başqa on iki rükət könüllü namazları qılan elə bir müsəlman qul yoxdur ki, Allah onun üçün Cənnətdə ev tikməsin."*** (Muslim, 728).

47. Sual: Ratibə sünnələr hansılardır?

Cavab:

– Sübh namazından əvvəl 2 rükət.

– Zöhr namazından əvvəl 4 rükət.

– Zöhr namazından sonra 2 rükət.

– Məğrib namazından sonra 2 rükət.

– İşa namazından sonra 2 rükət.

48. Sual: Zəkat nədir?

Cavab: Zəkat – müəyyən olunmuş vaxtda, müəyyən maldan çıxarılaraq müəyyən sinif insanlara veriləcək vacib haqdır.

49. Sual: Oruc nədir?

Cavab: Oruc – niyyət edərək sübh namazının vaxtı girdikdən axşam gün batana qədər orucu pozan şeylərdən özünü saxlamaqla Allaha ibadət etməkdir.

50. Sual: Hədisi tamamla: Allahın elçisi ﷺ belə deyib: “Kim Ramazan ayını (vacibliyinə) iman edərək və savabını Allahdan umaraq oruc tutarsa, ...”

Cavab: ***“Kim Ramazan ayını (vacibliyinə) iman edərək və savabını Allahdan umaraq oruc tutarsa, onun keçmiş günahları bağışlanar.”*** (Buxari, 38. Muslim, 760).

51. Sual: Həcc nədir?

Cavab: Xüsusi vaxtda, xüsusi əməlləri yerinə yetirmək üçün Beytul-hərama (Kəbəyə) yollanmaqla Allaha ibadət etməkdir.

52. Sual: Hədisi tamamla: Allahın elçisi ﷺ belə deyib: “Kim pis söz danışmadan və günah etmədən həcc edərsə, ...”

Cavab: ***“Kim pis söz danışmadan və günah etmədən həcc edərsə, həcdən anadan olduğu gündəki kimi günahsız qayıdar.”***

53. Sual: İmanın rüknləri hansılardır?

Cavab:

1. Allaha iman etmək

2. Onun mələklərinə iman etmək

3. Onun kitablarına iman etmək

4. Onun elçilərinə iman etmək

5. Axirət gününə iman etmək

6. Qədərə, onun xeyrinin və şərinin Allahdan olmasına iman etmək.

54. Sual: Mələklərdən üçünün adını zikr et.

Cavab: Cəbrayıl, Mikayıl və İsrafil. (Allahın salamı onların üzərinə olsun)

55. Sual: Allahın kitablarını və onların kimə nazil olduğunu zikr et.

Cavab: 1. Tövrat – Musa peyğəmbərə.

2. İncil – İsa peyğəmbərə.

3. Zəbur – Davud peyğəmbərə.

4. İbrahimin səhifələri – İbrahim peyğəmbərə. Musanın səhifələri – Musa peyğəmbərə.

5. Qurani Kərim – Muhəmməd peyğəmbərə nazil olub.

56. Sual: “Ulul-əzm” (əzm sahibləri) elçilər kimlərdir?

Cavab: 1. Nuh (əleyhis-sələm)

2. İbrahim (əleyhis-sələm)

3. Musa (əleyhis-sələm)

4. İsa (əleyhis-sələm)

5. Muhəmməd ﷺ.

57. Sual: Hər gecə müsəlmana əl-Bəqərə surəsinin axırlarından hansı ayələri oxumaq müstəhəbdir?

Cavab: əl-Bəqərə surəsinin 285, 286-cı ayələrini:

﴿ءَامَنَ ٱلرَّسُولُ بِمَآ أُنزِلَ إِلَيۡهِ مِن رَّبِّهِۦ وَٱلۡمُؤۡمِنُونَۚ كُلٌّ ءَامَنَ بِٱللَّهِ وَمَلَـٰٓئِكَتِهِۦ وَكُتُبِهِۦ وَرُسُلِهِۦ لَا
نُفَرِّقُ بَيۡنَ أَحَدٖ مِّن رُّسُلِهِۦۚ وَقَالُواْ سَمِعۡنَا وَأَطَعۡنَاۖ غُفۡرَانَكَ رَبَّنَا وَإِلَيۡكَ ٱلۡمَصِيرُ ٢٨٥ لَا يُكَلِّفُ ٱللَّهُ
نَفۡسًا إِلَّا وُسۡعَهَاۚ لَهَا مَا كَسَبَتۡ وَعَلَيۡهَا مَا ٱكۡتَسَبَتۡۗ رَبَّنَا لَا تُؤَاخِذۡنَآ إِن نَّسِينَآ أَوۡ أَخۡطَأۡنَاۚ رَبَّنَا وَلَا
تَحۡمِلۡ عَلَيۡنَآ إِصۡرٗا كَمَا حَمَلۡتَهُۥ عَلَى ٱلَّذِينَ مِن قَبۡلِنَاۚ رَبَّنَا وَلَا تُحَمِّلۡنَا مَا لَا طَاقَةَ لَنَا بِهِۦۖ وَٱعۡفُ عَنَّا
وَٱغۡفِرۡ لَنَا وَٱرۡحَمۡنَآۚ أَنتَ مَوۡلَىٰنَا فَٱنصُرۡنَا عَلَى ٱلۡقَوۡمِ ٱلۡكَٰفِرِينَ ٢٨٦﴾

58. Sual: Qiyamət nə vaxt qopacaq və buna dəlil nədir?

Cavab: Bu barədə elm yalnız Allahdadır. Qiyamətin nə zaman qopacağını Allahdan başqa heç kim bilmir. Uca Allah buyurub: **“Həqiqətən, o Saat haqqında elm yalnız Allahdadır.”** (Loğman, 34).

59. Sual: “Dərul-kəramə” (izzət və ikram diyarı) nədir? Onun neçə qapısı var?

Cavab: “Dərul-kəramə” Cənnətdir. Cənnətin səkkiz qapısı var.

60. Sual: Cənnətdə ən böyük nemət nədir?

Cavab: Allahı görmək.

61. Sual: İnsan Cənnətə ən çox hansı əməllər səbəbi ilə daxil olur?

Cavab: Təqva (Allah qorxusu) və gözəl əxlaq.

62. Sual: Əzab və alçalmaq diyarı haradır? Onun neçə qapısı var?

Cavab: Cəhənnəm. Onun yeddi qapısı var.

63. Sual: Ehsan nədir?

Cavab: Ehsan – Allahı görürmüş kimi Ona ibadət etməyindir, sən Onu görməsən də, O, səni görür.

64. Sual: İnsanlar arasında xeyirxahlıq və yaxşılıq edilməyə ən çox kimin haqqı çatır?

Cavab: Valideynlərin: ata və ananın.

65. Sual: Sən öz valideynlərin üçün dua etdikdə nə deyirsən?

Cavab: Ey Rəbbim! Məni və valideynlərimi bağışla, onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!

66. Sual: Allaha ən sevimli əməl hansıdır?

Cavab: Vaxtında qılınan namaz, sonra valideynlərə yaxşılıq etmək, sonra Allah yolunda döyüşmək.

67. Sual: Allah yanında insanların ən hörmətlisi kimdir?

Cavab: Ən təqvalı olan (Allahdan daha çox qorxan) kimsə. Ən təqvalı insan Allahın elçisidir ﷺ.

68. Sual: Sənin uca tutduğun əzəmətli kitab hansıdır və neçə cüzdən ibarətdir?

Cavab: Bu kitab Qurani Kərimdir. O, otuz cüzdən ibarətdir.

69. Sual: Qurani Kərimi mushafdan oxumaq üçün sən nə edirsən?

Cavab: Dəstəmaz alıram, sonra lənətlənmiş şeytandan Allaha sığınıram.

70. Sual: Allaha sığınmaq üçün iki surə hansıdır? Onları oxu.

Cavab: Fələq surəsi:

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

﴿قُلۡ أَعُوذُ بِرَبِّ ٱلۡفَلَقِ ١ مِن شَرِّ مَا خَلَقَ ٢ وَمِن شَرِّ غَاسِقٍ إِذَا وَقَبَ ٣ وَمِن شَرِّ ٱلنَّفَّٰثَٰتِ فِي ٱلۡعُقَدِ ٤ وَمِن شَرِّ حَاسِدٍ إِذَا حَسَدَ ٥﴾

Nəs surəsi:

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

﴿قُلۡ أَعُوذُ بِرَبِّ ٱلنَّاسِ ١ مَلِكِ ٱلنَّاسِ ٢ إِلَٰهِ ٱلنَّاسِ ٣ مِن شَرِّ ٱلۡوَسۡوَاسِ ٱلۡخَنَّاسِ ٤ ٱلَّذِي يُوَسۡوِسُ فِي صُدُورِ ٱلنَّاسِ ٥ مِنَ ٱلۡجِنَّةِ وَٱلنَّاسِ ٦﴾

71. Sual: Quranda ən əzəmətli ayə hansıdır? Onu oxu.

Cavab: Ayətul-kursi (Bəqərə surəsi, 255):

﴿ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّا هُوَ ٱلۡحَيُّ ٱلۡقَيُّومُۚ لَا تَأۡخُذُهُۥ سِنَةٞ وَلَا نَوۡمٞۚ لَّهُۥ مَا فِي ٱلسَّمَٰوَٰتِ وَمَا فِي ٱلۡأَرۡضِۗ مَن ذَا ٱلَّذِي يَشۡفَعُ عِندَهُۥٓ إِلَّا بِإِذۡنِهِۦۚ يَعۡلَمُ مَا بَيۡنَ أَيۡدِيهِمۡ وَمَا خَلۡفَهُمۡۖ وَلَا يُحِيطُونَ بِشَيۡءٖ مِّنۡ عِلۡمِهِۦٓ إِلَّا بِمَا شَآءَۚ وَسِعَ كُرۡسِيُّهُ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضَۖ وَلَا يَـُٔودُهُۥ حِفۡظُهُمَاۚ وَهُوَ ٱلۡعَلِيُّ ٱلۡعَظِيمُ ٢٥٥﴾

72. Sual: Hədisi tamamla: Allahın elçisi ﷺ belə deyib: “Kim hər namazdan sonra Ayətul-kursini oxuyarsa, ...”

Cavab: ***“Kim hər namazdan sonra Ayətul-kursini oxuyarsa, onunla Cənnətə girməsi arasında yalnız ölüm durar.”*** (Nəsai, 9928. Şeyx Albani səhih deyib).

73. Sual: Quranda ən fəzilətli surə hansıdır? Onu oxu.

Cavab: Fatihə surəsi:

﴿بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ ١ ٱلۡحَمۡدُ لِلَّهِ رَبِّ ٱلۡعَٰلَمِينَ ٢ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ ٣ مَٰلِكِ يَوۡمِ ٱلدِّينِ ٤ إِيَّاكَ نَعۡبُدُ وَإِيَّاكَ نَسۡتَعِينُ ٥ ٱهۡدِنَا ٱلصِّرَٰطَ ٱلۡمُسۡتَقِيمَ ٦ صِرَٰطَ ٱلَّذِينَ أَنۡعَمۡتَ عَلَيۡهِمۡ غَيۡرِ ٱلۡمَغۡضُوبِ عَلَيۡهِمۡ وَلَا ٱلضَّآلِّينَ ٧﴾

74. Sual: Quranda ən uzun surə hansıdır?

Cavab: Bəqərə surəsi.

75. Sual: Quranda ən qısa surə hansıdır? Onu oxu.

Cavab: Kövsər surəsi:

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

﴿إِنَّآ أَعۡطَيۡنَٰكَ ٱلۡكَوۡثَرَ ١ فَصَلِّ لِرَبِّكَ وَٱنۡحَرۡ ٢ إِنَّ شَانِئَكَ هُوَ ٱلۡأَبۡتَرُ ٣﴾

76. Sual: Quranın üçdə birinə bərabər olan surə hansıdır? Onu oxu.

Cavab: İxlas surəsi:

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

﴿قُلۡ هُوَ ٱللَّهُ أَحَدٌ ١ ٱللَّهُ ٱلصَّمَدُ ٢ لَمۡ يَلِدۡ وَلَمۡ يُولَدۡ ٣ وَلَمۡ يَكُن لَّهُۥ كُفُوًا أَحَدُۢ ٤﴾

77. Sual: Əsr surəsini oxu.

Cavab:

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

﴿وَٱلۡعَصۡرِ ١ إِنَّ ٱلۡإِنسَٰنَ لَفِي خُسۡرٍ ٢ إِلَّا ٱلَّذِينَ ءَامَنُواْ وَعَمِلُواْ ٱلصَّٰلِحَٰتِ وَتَوَاصَوۡاْ بِٱلۡحَقِّ
وَتَوَاصَوۡاْ بِٱلصَّبۡرِ ٣﴾

78. Sual: Xislətlərin ən gözəli və ən üstünü hansıdır? Bəs ən çirkin və pis xislət hansıdır?

Cavab: Ən gözəl və üstün xislət düz danışmaqdır. Ən çirkin və pis xislət isə, yalan danışmaqdır.

79. Sual: Hədisi tamamla: Allahın elçisi ﷺ belə deyib: “Sizdən biriniz özü üçün istədiyini öz müsəlman qardaşı üçün də istəməyənə qədər...”

Cavab: ***“Sizdən biriniz özü üçün istədiyini öz müsəlman qardaşı üçün də istəməyənə qədər*** (kamil) ***iman etmiş olmaz.”*** (Buxari, Muslim).

80. Sual: Sənin düşmənin kimdir?

Cavab: Şeytan.

81. Sual: Sən nə zaman şeytandan Allaha sığınırsan?

Cavab:

1. Quran oxumazdan əvvəl.

2. Ayaqyoluna daxil olmazdan əvvəl.

3. Qəzəbləndikdə.

4. Vəsvəsə gəldikdə.

5. Uzunqulağın anqırmasını eşitdikdə.

82. Sual: Qəlblərdə olan xəstəliklərin ən təhlükəlisi hansıdır?

Cavab: Nifaq (münafiqlik).

83. Sual: Münafiqlərə ən ağır gələn namaz hansıdır?

Cavab: Sübh və İşa namazı.

84. Sual: Hədisi tamamla: Allahın elçisi ﷺ belə deyib: “Münafiqin əlamətləri üçdür: danışarkən yalan danışar,...”

Cavab: ***“Münafiqin əlamətləri üçdür: danışarkən yalan danışar, vəd verdikdə öz vədinə xilaf çıxar və ona bir əmanət verildikdə bu əmanətə xəyanət edər”.*** (Buxari, Muslim)

85. Sual: İnsan üçün ən təhlükəli şey nədir?

Cavab: Onun dili.

86. Sual: Hədisi tamamla: Allahın elçisi ﷺ belə deyib: “Kişinin islamının gözəlliyindəndir ki, ...”

Cavab: ***“Kişinin islamının gözəlliyindəndir ki, özünə aid olmayan şeyi tərk etsin.”*** (Tirmizi, ibn Məcə. Şeyx Albani həsən deyib)

87. Sual: Allaha ən sevimli olan kəlmələr hansıdır?

Cavab:

“Subhənallah”

“Əlhəmdu lilləh”

“Lə iləhə illəllah”

“Allahu Əkbər”

88. Sual: Cənnətin xəzinəsi sayılan zikr hansıdır?

Cavab: “Lə həvlə va lə quvvətə illə billəh” (Güc və qüvvət yalnız Allahdandır)

89. Sual: Hədisi tamamla: Allahın elçisi ﷺ belə buyurub: “İki kəlmə vardır ki, onlar dil üçün yüngül,...”

Cavab: ***“İki kəlmə vardır ki, onlar dil üçün yüngül, tərəzidə ağır gələn və Rəhməna sevimli olan kəlmələrdir: «subhənallahi və bihəmdihi, subhənallahil-Azım».”*** (Buxari, Muslim).

90. Sual: İstiğfarın (Allahdan bağışlanma diləməyin) ən üstün forması hansıdır?

Cavab: ***“Allahummə, əntə rabbi lə iləhə illə ənt, xaləqtəni və ənə abduk, və ənə alə əhdikə və və'dikə məs-təta't, əuzu bikə min şərri mə sanə't, əbuu ləkə binimətikə aləyyə və əbuu bizənbi, fəğfir li, fəinnəhu lə yəğfiruz-zunubə illə ənt.”*** (Buxari).

(Mənası: Ya Allah, Sən mənim Rəbbimsən, Səndən başqa ibadətə layiq olan məbud yoxdur. Məni Sən yaratmısan və mən Sənin qulunam. Mən Sənə verdiyim əhdə və vədə bacardığım qədər sadiq olacam. Etdiklərimin şərindən Sənə sığınıram. Sənin mənə verdiyin nemətləri etiraf edirəm. Etdiyim günahları da etiraf edirəm. Məni bağışla, həqiqətən, günahları yalnız Sən bağışlayırsan.)

91. Sual: Yatmazdan öncə hansı zikri etməliyik?

Cavab: ***“Bismikəl-lahummə əmutu və əhyə”.***

(Mənası: Ya Allah, sənin adınla ölür və dirilirəm.) (Buxari, Muslim).

92. Sual: Yuxudan oyanarkən hansı zikri etməliyik?

Cavab: “Əlhəmdu lilləhil-ləzi əhyənə bə'də mə əmətənə və ileyhin-nuşur.”

(Mənası: Bizi öldürdükdən sonra diriltdən Allaha həmd-sənalar olsun. Dönüş də Onadır).

93. Sual: İslamda salamlama necə olur?

Cavab: Əssələmu əleykum və rahmətullahi və bərakətuh.

94. Sual: Müsəlman hansı əli ilə yeyir və içir?

Cavab: Sağ əli ilə.

95. Sual: Hansı yerlərdə "Bismilləh" deyirsən?

Cavab:

1. Yemək və içməkdən əvvəl.
2. Ayaqyoluna girməzdən əvvəl.
3. Məscidə girərkən.
4. Məsciddən çıxarkən.
5. Paltarı soyunarkən.

96. Sual: Nə zaman "əlhəmdu lilləh" deyirsən?

Cavab:

1. Yemək və içməkdən sonra.
2. Asqırdıqda.
3. Hər dəfə nemət verildikdə.

4. Hər bir halında.

97. Sual: Asqırdıqdan sonra "əlhəmdu lilləh" deyən adama hansı duanı edirsən və o, cavabında sənə nə deməlidir?

Cavab: Asqırdıqdan sonra "əlhəmdu lilləh" deyən adama "yərhəmukəllah" (Allah sənə rəhm etsin) deyirəm. O isə, cavabında: "yəhdikumullahu və yuslihu bələkum" (Allah sizi doğru yola yönəltsin və işlərinizi yoluna qoysun) deyir.

98. Sual: Hədisi tamamla: “Allah kimə xeyir istəyərsə, ...”

Cavab: “Allah kimə xeyir istəyərsə, onu dində fəqih (dini başa düşən) edər.”

99. Sual: Allaha ən sevimli yerlər hansılardır? Bəs Allahın ən sevmədiyi yerlər hansılardır?

Cavab: Allaha ən sevimli yerlər məscidlərdir. Allahın ən çox sevmədiyi yerlər isə, bazarlardır.

100. Sual: Həftənin ən fəzilətli günü hansıdır? İlin ən fəzilətli günü hansıdır? İldə ən fəzilətli gecə hansıdır? İlin ən fəzilətli ayı hansıdır?

Cavab:

Həftənin ən fəzilətli günü Cümə günüdür. İlin ən fəzilətli günü Ərəfə günüdür. İlin ən fəzilətli gecəsi Qədir gecəsidir. İlin ən fəzilətli ayı Ramazan ayıdır.

101. Sual: İslamda hansı bayramlar var?

Cavab: İslamda yalnız iki bayram var: Qurban bayramı və Ramazan bayramı.

102. Sual: Raşidi xəlifələr kimlərdir?

Cavab:

1. Əbu Bəkr əs-Sıddiq

2. Ömər ibnul-Xattab

3. Osman ibn Affən

4. Əli ibn Əbi Talib. Allah onların hamısından razı olsun.

Allahın yardımı ilə bu sual-cavab başa çatdı. Aləmlərin Rəbbi Allaha həmd-sənalar olsun. Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və bütün səhabələrinə Allahın salavatı və salamı olsun.